# Tofiqin uğurları



**Teatr, rəssamlıq, musiqi və incəsənətin o biri janrları yetişməkdə olan gənc nəslin mənəvi-psixoloji inkişafında böyük rol oynayır. Respublikamızın hər tərəfində bu sahədə görülmüş işlər, aparılan məqsədyönlü mədəniyyət proqramları geniş vüsət almışdır.**

Dövlətimizin həyata keçirdiyi mədəni proqramlar, o cümlədən mahnı, muğam müsabiqələri gənc ifaçıların yetişdirilərək mədəniyyətimizə layiqli xidmət etmələrinə imkan yaradır. Məhz buna görə respublikamızın paytaxtında və ondan uzaqlarda yerləşən rayonlarımızda musiqi və incəsənət məktəbləri fəaliyyət göstərir. Üzeyir Hacıbəyov adına Sabirabad şəhər 7 illik musiqi məktəbi də özünün qabaqcıl kollektiv üzvləri ilə fərqlənir. Musiqi məktəbində bacarıqlı musiqi müəllimləri çalışır. Burada təhsil alan uşaqlar mütəmadi olaraq respublikamızın müxtəlif yerlərində keçirilən müsabiqələrdə müvəffəqiyyətlə iştirak edirlər. Bu şagirdlərdən biri də məktəbin səs sinfində təhsil alan Tofiq Əliyevdir (ixtisas müəllimi Ramiz Sultanov). O, 1996-cı ildə Sabirabad rayonunun Suqovuşan kəndində anadan olub. 2006-cı ildən Üzeyir Hacıbəyov adına Sabirabad şəhər 7 illik musiqi məktəbində təhsil alır. Mən bu balaca oğlandan musiqi anlayışı barədə sual-cavab edərkən Tofiq suallarıma yaşına uyğun olmayan tərzdə cavab verirdi.

Balaca müğənni lap kiçik yaşlarından televiziyada, radio dalğalarında mahnı, muğam ifaçılarını həvəslə dinlədiyini və elə bu səbəbdən də gələcəkdə müğənni kimi yetişməklə Azərbaycan xalq mahnılarını, muğamlarımızı, eyni zamanda bəstəkar əsərlərini ifa etməyi qarşısına məqsəd qoyduğunu söylədi. Tofiq bu illərdə "Qatar", "Mahur hindi", "Bayatı qacar" və başqa muğamlardan parçaları, "Qaçaq Nəbi", "Bəh-bəh", "Yeri dan üstə yeri", "Ay bülbüllər" və başqa xalq mahnılarını həvəslə öyrənib. Tofiq Əliyev müxtəlif illərdə respublikamızın şəhər və rayonlarında keçirilmiş musiqi müsabiqələrində müvəffəqiyyətlə çıxış etmişdir. Beləki, 14-18 may 2008-ci il tarixdə Astarada keçirilmiş uşaq muğam ifaçılarının IV respublika müsabiqəsində fərqləndiyinə görə fəxri fərmanla təltif edilmişdir. Tofiq Əliyev bu müsabiqədə "Qatar" muğamını ifa etmişdir. Bu müvəffəqiyyətə cavab olaraq Üzeyir Hacıbəyov adına musiqi məktəbinin rəhbərliyi də (direktor Əfiqə Həsənova) qalibi yenidən fəxri fərmanla təltif etmişdir. Tofiq Əliyev musiqi məktəbində təhsil aldıqca qiymətli el sənətinin sirlərinə yaxşı bələd olmaq üçün müəllimlərin tövsiyələrini həvəslə yerinə yetirirdi. 26.12.2008-ci ildə Azərbaycan-Türkiyə özəl litseylərinin Şirvan şəhərində təşkil etdiyi "Ana dilimizi sevək-sevdirək" adlı müsabiqədə iştirak edən Tofiq Əliyev "Təşəkkürnamə" almışdır. Gənc müğənni Tofiq sevdiyi xanəndəlik sənətinin çətin yollarında həvəslə addımlayır. Onun bu istedadını nəzərdən qaçırmayan musiqi məktəbi rəhbərliyi tərəfindən 29 oktyabr 2009-cu ildə Bərdə şəhərində keçirilmiş mahnı-muğam müsabiqəsinə göndərilmişdir.

**Tofiq burada "Heyratı" ritmik muğamını ifa etmişdir. Müvəffəqiyyətli çıxışına görə Əliyev Tofiq Xanlar oğlu "İstedadlı uşaqlar" respublika müsabiqəsində fəal iştirak etdiyinə görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin şəxsi imzası olan fəxri fərmanla mükafatlandırılmışdır. Bu gün mədəniyyətə və incəsənətə göstərilən dövlət qayğısına cavab olaraq bu sahədə böyük işlər görülür. Biz də öz növbəmizdə Tofiqə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.**

**Mahir QORATLI**